ResearchGate

See discussions, stats, and author profiles for this publication at: https://www.researchgate.net/publication/336107794

# Biliyin inkişafı, dünyagörüşü və iqtisadi artım: iqtisadi-fəlsəfi baxışlarda. "İqtisadi artım və ictimai rifah" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, Bakı 201...

**Conference Paper** · January 2018

CITATIONS
0

READS
1,182

**2 authors**, including:



Allahyar Muradov
Azerbaijan National Academy of Sciences

**51** PUBLICATIONS **11** CITATIONS

SEE PROFILE

**Some of the authors of this publication are also working on these related projects:**

Project The opinion of intellectuals: questions and answers View project

Project Drought is the "Next Pandemic" View project

All content following this page was uploaded by Allahyar Muradov on 27 September 2019.

The user has requested enhancement of the downloaded file.

AMEA İqtisadiyyat İnstitutunun

***60 illik yubileyinə***

həsr olunmuş

# “İqtisadi artım və ictimai rifah”

## Mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları

**Bakı-2018**

AMEA İqtisadiyyat İnstitutunun *60 illik yubileyinə* həsr olunmuş "İqtisadi artım və ictimai rifah" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, Bakı 2018, səh *53-60*

***MURADOV A.[1], ƏZİZZADƏ N.[2]***

**BİLİYİN İNKİŞAFI, DÜNYAGÖRÜŞÜ VƏ İQTİSADİ ARTIM: İQTİSADİ-FƏLSƏFİ BAXIŞLARDA**

***Xülasə.*** *Məqalədə qarşıya qoyulan əsas məqsəd bilik iqtisadiyyatının "nüvəsi"ni təşkil edən "idrak", "dünyagörüşü" anlayışlarının mahiyyətinə aydınlıq gətirmək, adi biliklə elmi biliyin fəlsəfi, iqtisadi, sosial mahiyyəti açmaq, nəzəri yanaşmalara əsaslanaraq biliyin inkişafının əhəmiyyətini dəyərləndirməkdir. Tədqiqatlar göstərir ki, dünyagörüşü ilə biliklərə əsaslanan iqtisadiyyat quruculuğu arasında bağlılıq mövcuddur.*

***Açar sözlər****: bilik iqtisadiyyatı, təhsil, təlim, elmi fəaliyyət*

***Giriş***

XX əsrin sonu və XXI əsrin keçən dövrü ərzində biliyin sürətli inkişafı bütün dünyada, xüsusilə inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrin sosial-iqtisadi inkişafı üçün yeni imkanlar açmışdır. Təcrübə göstərir ki, məhz biliyin inkişafı (*biliyin inkişafı dedikdə – elmin, təhsilin, informasiya təminatının, innovasiya fəaliy-yətinin, elmtutumlu sənaye, intellektual xidmət sahələrinin iqtisadi artımda rolunun yüksəlməsini nəzərdə tuturuq*) sayəsində cəmiyyət bugünkü səviyyəsinə yüksələ bilmişdir. Biliyin iqtisadi inkişafda rolunun artırılması isə biliyin daşıyıcısı olan insanın, yüksək səmərə gətirən kapitala çevrilə bilməsi və ondan istifadə səviyyəsindən asılıdır.

Cəmiyyətin təkamül tarixinin təhlili göstərir ki, biliyin yaradılması (*fəlsəfi baxışlar, fundamental və təcrübi biliklər*) daima cəmiyyətin inkişaf səviyyəsini qabaqlamış və arxasınca apara bilmişdir, bu gün də aparmaqdadır. Əgər bu belə olmasaydı, onda cəmiyyət təkamül mərhələlərini *(anteaqrardan bilikli cəmiyyətə*) keçə bilməzdi. Məhz biliyin inkişafı nəticəsində insanların dünyagörüşü *(təbiətə, cəmiyyətə baxışları)* dəyişmişdir. Regionları, ölkələləri və xalqları inkişaf səviyyəsinə görə bir-birindən fərqləndirən əsas amillərdən biri də təfəkkür, düşüncə tərzi və dünyagörüşdür. Belə ki, XXI əsrin bilikli cəmiyyət adlandırılmasına baxmayaraq, hazırda ölkələr inkişaf səviyyəsinə görə (*məsələn, Afrika və Avropa ölkələri*) bir-birindən kəskin şəkildə fərqlənir. Əgər onlar arasında müqayisə aparsaq, zəif inkişaf etmiş ölkələrdə həm dünyagörüşün, həm də biliyin inkişafının zəif olduğunu görə bilərik. Təbii ki, bunu bir çox hallarda haqlı olaraq siyasi, iqtisadi və sosial amillərlə bağlayırlar.

***Biliyin fəlsəfi mahiyyəti***

Biliyin fəlsəfi mahiyyətini açmaq üçün ilk olaraq dünyagörüşü, idrak, elmi idrak və bilik arasındakı əlaqəyə baxaq. Bunlardan birinin digərinə təsiri necə baş verir? Bunun üçün əvvəlcə "Bilik nədir"? sualına cavab axtaraq. Bilik – insanların öz maraq dünyasına uyğun olaraq yayılan (*verilən, alınan*) informasiyanı mənimsəmək, saxlamaq, onu "emal" və istifadə etmək kimi özünəməxsus fərdi qabiliyyəti, səriştəsi və bacarığıdır. Bu tərif ilk baxışdan sadə görünsə də, əslində, bunun izahı o qədər də asan deyil. Çünki, yaranan və ya meydana çıxan yeni bilik uzun və mürəkkəb proseslərdən keçərək cəmiyyətin istifadəsinə verilir. Hətta onun mənimsənilməsi də müəyyən zaman çərçivəsində mümkün olur. Mənimsənilən bilik, istifadə prosesində insanların dünyagörüşünü dəyişir və cəmiyyəti inkişafa doğru aparır. Deməli, biliyin inkişafı ilə

[1] ***Allahyar Niyaz oğlu Muradov*** - *i.f.d., dos., AMEA İqtisadiyyat İnstitutu*
[2] ***Nazənin Adil qızı Əzizzadə*** - *AMEA İqtisadiyyat İnstitutu, kiçik elmi işçi*

dünyagörüşün dəyişməsi, ümumilikdə isə cəmiyyətin inkişafı arasında sıx əlaqə vardır. Burada bilik aparıcı yer tutur. Məhz biliyin inkişafı nəticəsində insanların dünyagörüşü dəyişmiş, sivilizasiyalar bir-birini əvəz etmiş, müxtəlif xalqlar, mədəniyyətlər bir-birinə inteqrasiya etmişdir. Təbii ki, bu prosesdə müxtəlif elm sahələrinin mütəfəkkirlərinin, dövlət xadimlərinin, dini baxışların çox böyük rolu olmuşdur. Qədim dövrün filosoflarından Konfutsi (*Bax: Yao, 2000),* Fales, Anaksimandr (*Bax: Панченко, 1989)*, Anaksimen, Ksenofan (*Bax: Диоген, 1979),* , Pifaqor (Bax: *Жмудь, 1994)*, Heraklit (*Гераклит, 2011)* , Platon (*Платон, 1990)*, Aristotel (*Аристотель, 1983*), orta əsr filosofları Əl-Fərabi (*Аль-Фараби, 1973)*, İbn Sina (*AMEA, 2002*), Ə.Bəhmənyar (Bax: *Mehdiyev, 2010)***,** N.Tusi (*Tusi, 2005)*, N.Gəncəvi, İ.Nəsimi [Bax: *Xəlilov, 2006)*, B.Spinoza (*Спиноза , 1957)*, F.Bekon (*Бэкон, 1977)*, T.S.Kun (*Kun, 1977*), Hegel (*Гегель* , 1977), Kant (*Кант, 1999*) və s. adını çəkə bilmədiyimiz minlərlə dahinin baxışları və yazdıqları əsərlər dünyagörüşünün dəyişməsinə, təfəkkürün və biliyin inkişafına çox böyük təsir göstərmiş və bu gün də öz təsirini göstərməkdədir. Bir sözlə, dünyagörüşün dəyişməsində, fəlsəfi baxışlar, elmi kəşflər, yeni biliklərin yayılması, mənimsənilməsi, istifadəsi və fasiləsiz olaraq yenilənməsində yaradıcı (*onların sayı dünya əhalisinin 8-10%-indən çox deyil*) insanların böyük rolu olmuşdur. Onların dünyaya, cəmiyyətə, məkan və zamana, varlığa olan fəlsəfi baxışları və bu baxışlardakı ziddiyyətlər, dünyagörüşün dəyişməsinə və cəmiyyətin inkişafına təkan vermişdir.

***Dünyagörüşü və inkişaf***

Bəs "dünyagörüşü" nədir? Bilik dünyagörüşün dəyişməsinə necə təsir göstərir? Elmi-fəlsəfi ədəbiyyatda (*Спиркин, 2006*) "dünyagörüşü" ilə bağlı mahiyyətcə bir-birindən köklü şəkildə fərqlənməyən fikirlər yer alır. Belə ki, bir çox mənbələrdə dünyagörüşünə insanın – onu əhatə edən dünya haqqında, ümumiləşmiş görüşlər, ideyalar, baxışlar və prinsiplər sistemi kimi baxılır. Bəzi mənbələrdə (*Хазиев, Хазиева 2004*) dünyagörüşü - insanın özünə, ətraf aləmə, təbiətə və cəmiyyətə münasibəti, insanın dünyadakı mövqeyi haqqında baxışlarının məcmusu olduğu, bəzilərində isə, insanların yaşadıqları dünya ilə bağlı intellektual qavrayışı, təhtəlşüuru və s. baxış kimi şərh edilir. Bu təriflərdə dünyagörüşü insanın təbiətə və cəmiyyətə münasibəti, insanın dünya ilə bağlı mövqeyi, əqidəsi, idraki fəaliyyəti, özünü dərketməsi əsas xətt kimi keçir. Bu fikirlərə əsaslanaraq dünyagörüşü - cəmiyyətin (*insanların*) gerçəkliyə münasibətini və insanların fəaliyyət istiqamətini və onun təkmilləşdirilməsini müəyyən edən baxışlar, ideya və normalar sistemi kimi səciyyələndirmək olar.

Bildiyimiz kimi, dünyagörüşün dəyişməsi "idraki fəaliyyətin" nəticəsi olaraq meydana çıxır. Çünki, idraki fəaliyyət - insanın dünya (*təbiət və cəmiyyət, kosmik fəza və s.*) haqqında inanılmış və etibarlı bilik almasına yönələn yaradıcı fəaliyyətdir. Odur ki, dünyagörüşün insanların idraki fəaliyyətinin inkişafı nəticəsində dəyişdiyini söyləmək olar. Dəyişmə (*elmin inkişafı ilə əlaqədar baş verən dəyişikliklər*) isə öz növbəsində dünyagörüşü formalaşdırır. Bu proses fasiləsiz şəkildə hərəkətdə olur. Fasiləsizliyi təmin edən (və ya sürətləndirən) qüvvə (güc) isə intellektual (*elm, təhsil, təlim, ötürmə və yenilənmə*) fəaliyyətdir. İntellektual fəaliyyəti təşviq edən yaradıcılıq mühiti, təhsilin və elmin inkişafı bu prosesin mərkəzində dayanan əsas hərəkətverici qüvvədir. Yalnız bu halda cəmiyyət və iqtisadiyyat inkişaf edir, insanların rifahı yaxşılaşır.

Qədim filosoflardan Platon hesab edirdi ki, keçici olmayan ideyaların həqiqi dərki yalnız zəka (*burada zəka dedikdə, elmi dünyagörüşü nəzərdə tutulur*) ilə mümkündür. Bu nöqteyi-nəzərdən yanaşdıqda, elmi dünyagörüşə – dünyanın dərki ilə bağlı əvvəlki biliklər, dünya haqqında elmi anlayış və qanunauyğunluqların ümumiləşdirilmiş inikasını ifadə edən ideya və prinsiplərin məcmusu kimi baxmaq lazımdır. Elmi mənbələrdə "dərketmə" obyektiv dünyanın yaranması qanunauy-ğunluqları haqqında biliklərin mənimsənilməsi ilə bağlı metod və prosedurаların məcmusu kimi şərh edilir.

Məhz ətraf mühit və əşyalar, informasiyalar insanların beynində müvafiq duyğular, təsəvvürlər formalaşdırmaqla, onların idraki fəaliyyətinə təsir göstərir. Bu təsir insan idrakının fəallığının artmasına və onun müəyyən məqsədə yönəlməsinə, nəticə-lərin təcrübədə (*maddi və mənəvi istehsal fəaliyyətində*) istifadə olunmasına stimul yaradır. Sadə dildə desək, idraki fəaliyyət

- həqiqəti dərk etmə prosesidir. Həqiqətin (*təbiət və cəmiyyətdə baş verən hadisə və proseslərin*) dərk olunması, elmi bilik və elmi idrakla mümkündür. Elmi idrakın inkişafı isə təhsil və təlim nəticəsində baş verir.

Əslində, elmi dünyagörüşün - idrak fəaliyyəti olması fikri yeni deyil və qədim dövrdən bu günə qədər bütün elmi-fəlsəfi yanaşmalarda öz əksini tapmışdır. İnsan davranışını (istisadi və sosial) tədqiq edən alimlər idraki fəaliyyətin 3 prinsipdən: məqsəd, fəaliyyət və nəticədən ibarət olduğunu və bu prinsiplərin insanın inkişafında və yeni təfəkkürün formalaşmasında mühüm rol oynadığını qeyd edirlər. Bu prinsiplər əslində insanların fəaliyyətinin, yaşamasının və inkişafının əsasını təşkil edir.

Q.Uolles (Bax: *Вудвортс, 1950, s.772*) yeni ideyanın [biliyin] yaranmasını 3 mərhələyə: "hazırlıq", (*ideya*) "yetişmə, yetkinləşmə" (*mənimsəmə, formalaşma)* və "inkişaf" mərhələlərinə bölürdü. Bir sıra alimlər (*Helmholtz, 1995, Spearman,1923, Рубинштейн, 2000)* R.Vudvortsun bu mərhələlərinə 4-cü mərhələni əlavə edir və bunu "yoxlama-sınaq" (*tətbiq-səmərə)* adlandırırdılar. "Hazırlıq" mərhələsində problemə (ideyaya) müxtəlif aspektlərdən baxılır və bu zaman meydana çıxan ziddiyyətli baxışlar içərisindən birinin "yetişməsi, yetkinləşməsi" baş verir və bundan sonra yetkinləşən fikrin, mülahizənin, hipotezin cəmiyyət üçün izahı və istifadəsi mümkün olan "inkişafı" baş verir. "Yoxlama-sınaq" mərhələsində isə yaranmış yeni biliyin (ideyanın) cəmiyyət tərəfindən qəbul edilməsi və istifadəsi baş verir. Bu mərhələdən sonra və ya aralıq mərhələlərdə proses təkrarlanır. Yeni bilik daha yenisinin yaranmasına səbəb olur. Yaranan yeni biliklər insanların (cəmiyyətin), xalqların, millətlərin dünyagörüşü səviyyəsindən asılı olaraq müxtəlif problemlərin (iqtisadi, sosial, mənəvi, siyasi, psixoloji və s. ) həllində istifadə edilir.

**Yeni bilik və dünyagörüşü**

Əslində yeni bilik özü-özündən yaranmır, insanlar tərəfindən yaradılır. Lakin, bu, xalqın, cəmiyyətin özünüinkişaf, özünütənzimləmə və elmi idrakının inkişaf səviyyəsindən asılı olur. Bəs elmi idrak hansı mərhələlərdən keçərək formalaşır? Müasir elmi ədəbiyyatda elmi idrak prosesinin 3 əsas modeli məlumdur. Bir qrup filosofun (*Бэкон, 1977; Гоббс, 1989; Локк, 1985; Беркли, 1978; Юм, 1998*) irəli sürdüyü "Emprizim modeli", dirgər qrup filofofların (*Лейбниц, 1983; Кун, 1977)* irəli sürdüyü "teoretizim (nəzərizm) modeli" və nəhayət, K.Popperin (*Поппер, 2004)* "Problematizm modeli" daxildir. Bu modellərin əsasında həqiqətlərin aydınlaşdırılması, dərk edilməsi və real hadisələrin qabaqcadan görülməsi kimi üç tapşırıq dayanır.

İdrakın başqa formaları kimi, elmi idrak da ictimai dərketmənin müəyyən olunmuş özünəməxsus sosial-iqtisadi, iqtisadi-siyasi, siyasi-tarixi, sosial-mədəni funksiyalarını yerinə yetirir.

Elmi idrak – fəaliyyətin obyektiv inkişafa yönəlmiş**,** dünya haqqında mütəşəkkil və əsaslandırılmış biliklər sisteminin xüsusi növüdür *(Кун, 2003, s.218)* Qeyd olunan fikirlərə əsaslanaraq elmi idrakı [elmi dərki] təbiət və cəmiyyətdə baş verən hadisələr haqqında obyektiv və həqiqi (elmi) biliyin alınması, mənimsənilməsi və istifadəsi prosesi kimi səciyyələndirmək olar. Müəyyən elmi biliklərə sahib olmadan, ölkənin, ümumilikdə isə cəmiyyətin inkişafı [iqtisadi, sosial, mədəni] mümkün deyil. Bu fikrə əsaslansaq ölkələrin, xalqların sosial-iqtisadi inki-şafı ilə elmi (buna biliyin də demək olar) dərketmə səviyyəsi arasında asılılıq olduğunu deyə bilərik.

Qədim yunan filosofu Aristotelə (*Аристотель, 1983,* s.70) görə "...elmi idrak - səbəblərin aydınlaşdırılmasına, yaxud sübutlara əsaslanan dəqiq bilikdir. Aristotel elmi idrakın 3 xarakterik xüsusiyyətini göstərirdi: *birincisi,* sübutedici xüsusiyyət (universallıq və zərurət); *ikincisi,* izahedici xüsusiyyət (izah etmək, aydınlaşdırmaq qabiliyyəti); nəhayət *üçüncüsü,* uyğunlaşdırma xüsusiyyəti (tabelik dərəcəsinin iştirakı ilə uyğunlaşmanın vəhdəti) (s.62). Bu baxımdan fəlsəfi ensiklopediyada elmi fəaliyyət və bilik idrakın təcrübədə yoxlanılmış gerçəkliyi, həqiqətin insan beynində əks olunan nəticələri kimi qiymətləndirilir.

L.Menis (*Менис, 2005,* s.71) insan idrakını qiymətləndirərkən belə qənaətə gəlmişdi ki, "insan məntiqi düşünməklə kosmik hadisələrin son nəticələrini açmağa, kainatın yaranma

məqsədlərini və inqilabi istiqamətlərini müəyyən etməyə qadirdir”. Bunun üçün elmi idrakın inkişafı hər bir cəmiyyət üçün vacibdir. Aristotelə görə (*Аристотель, 1983, s.3*) “bilik və idrak hər şeydən əvvəl elmə əsaslanır”. Onun fikrincə “daha layiqli idrak, yaxud da biliyi, daha yaxşı bilik qazanmaq üçün öyrənənlər, elmi daha təkmil qəbul edirlər”. Bu prosesdə fasiləsizlik və özünüinkişaf, yaradıcılıq mühiti mühüm rol oynayır. Məhz bunun nəticəsində cəmiyyətin inkişafına təkan verən yeni biliklər meydana gəlir.

Son 100 ildə (*orta hesabla hər 10-20 ildən bir*) elmi biliklərin ümumi həcmində sürətli yenilənmə baş vermiş və bu yenilik biliyə çevrilərək cəmiyyət tərəfindən istifadə olunmuş və bu gün də həmin biliklərdən istifadə olunmaqdadır. Belə ki, bu gün elmin nəticəsi hesab olunan bilik, müəyyən zaman keçdikdən sona daha yeni elmi nəticələrlə əvəz olunur. Bu əvəzlənmə elmi biliklərin istehsalı, mənimsənilməsi, toplanması, yayılması və istifadəsi ilə müşayiət edilir. Əslində biliyin inkişafını “əvəzetmə” prosesi kimi də dəyərləndirmək olar.

Bəzən elmi fəaliyyətə - insanın obyektiv (etibarlı, əsaslandırılmış) biliklərin istehsalı, toplanması və sistemləşdirilməsinə yönəlmiş idraki fəaliyyətin növü kimi yanaşırlar. Əgər elmi fəaliyyətin spesifikliyini nəzərə alsaq, onda elmə, xüsusi idrak fəaliyyəti kimi baxmaq daha düzgün olardı. Çünki, bu fəaliyyətin nəticələri müəyyən olunmuş prinsiplər əsasında, sübutedici, ölçülmüş və tam sistemə gətirilmiş biliklərin məcmusu kimi çıxış edir.

Qeyd etdiyimiz kimi, elmi idrak - yeni biliyin yaranmasına yönələn yaradıcı fəaliyyətdir. İnsanın dünyagörüşü və dünyanı dərk etməsi, onların idrak fəaliyyətindən, təhsilindən və təcrübəsindən asılı olur. Təhsil və təlim elmi idrakın inkişafına, elmi idrak isə cəmiyyətin, iqtisadiyyatın inkişafında, sosial rifahın yaxşılaşmasına təsir göstərir. Deməli, biliyin formalaşmasını dünyagörüşün dəyişməsindən, idrak və dərketmə prosesindən, təhsildən, elm və elmi biliklərdən kənarda təsəvvür etmək qeyri-mümkündür. Təbii ki, XX əsrin əvvəllərinə qədər biliyin yayılması və ötürülməsi üçün indiki kimi geniş imkanlar (*təhsil məktəbləri, laboratoriyalar, tədqiqat mərkəzləri, isteh-salat, İnternet və s.*) olmasa da, sənətkarlar, alimlər ümumilikdə isə insanlar öz bilik və bacarıqlarını fərdi şəkildə ustad-şagird, ailə-nəsil münasibətləri ilə ötürür, müşahidə yolu ilə qazanırdılar. Bu baxımdan dünyagörüşü, idrak və bilik cəmiyyətin inkişafında mühüm rol oynamışdır. Bunu sxematik olaraq aşağıdakı kimi vermək olar [Şəkil 1].




**Şəkil 1. Dünyagörüşün formalaşmasının struktur sxemi**

***Qeyd**. Şəkil müəlliflər tərəfindən tərtib edilmişdir.*

Sxemdən göründüyü kimi, dünyagörüşün dəyişməsində və cəmiyyətin inkişa-fında elm, təhsil, təlim və təcrübə əsas yerlərdən birini tutur (*növbəti fəsillərdə və paraqraflarda biz bunu statistik göstəricilər əsasında sübut etməyə çalışacağıq*). Çünki dünyagörüşün dəyişməsi elm, təhsil, təlim və təcrübə vasitəsilə baş verir, elmi idrak və bilik vasitəsilə yenilənir.

Qeyd edək ki, filosoflar biliyi 3 yerə: adi bilik, konkret elmi bilik və dünya-görüşü haqqında ([fəlsəfi) biliyə bölürlər. Ensiklopedik mənbələrdə bəzən bilik: bilik-bacarıq (təcrübi biliklər) və bilik-informasiya (informasiya, məlumat) kateqoriya-larına da ayrılır. Biliyi bir çox hallarda insana məxsus qanunlar və amillərin toplusu olan - faktiki biliklərə, dünyaya məxsus sistemin universal və xüsusi metodların məcmusu olan - aktual biliklərə, nəhayət, axtarış istiqamətini müəyyən edən və alternativ yolların seçilməsini təmin edən - praqmatik biliklərə ayırırlar. (*kayzen.az)* Bəzən də biliyi təsnifləşdirərkən onu təcrübi biliklərə (*ayrı-ayrı hadisələr və faktlar arasın-dakı məlum olan qarşılıqlı əlaqələr haqqında biliklər*), fundamental biliklərə – (*baş verən proseslərin strukturunu və təbiətini əks etdirən abstraksiyalar, analogiyalar məlum olmayan haqqında biliklər*) və tətbiqi biliklərə – (*bunun vasitəsilə məlum olanlar izah edilir və təkmilləşdirilir*) bölürlər.

Fikrimizcə, müasir dövrdə biliyi – adi, praktik [tətbiq] və elmi biliyə bölmək olar. Elmi bilik faktlara, sübutlara əsaslanan bilikdir. Aparılan tədqiqatlara əsaslanaraq indiki şəraitdə elmi biliyə cəmiyyətin maddi və mənəvi qida mənbəyi kimi baxmaq olar. Elmi bilik - adi və praktiki bilikdən (*yaşamaq təcrübəsi, sağlam düşüncə, iş təcrübəsi*) fərqli olaraq yeni biliyin (*nəzəriyyə, texnika, texnologiya və s.*) istehsalı ilə xarakterizə olunur, cəmiyyətin inkişafına və dünyagörüşün dəyişməsinə güclü təsir göstərir. Praktik bilik isə elmi nəticələrin məcmusunu özündə birləşdirərək onların istehsalı və təcrübi istifadəsini həyata keçirməklə sosial-iqtisadi inkişafa imkan yaradır. Adi bilik isə gündəlik həyatda istifadə etdiyimiz, yaxud da istifadə etmədiyimiz, lakin hər gün müxtəlif mənbələrdən aldığımız (*informasiya, məlumat*) bilikdir. Bu təsnifatı bir qədər də ümumiləşdirsək, onda biliyi iki yerə: elmi (*nəzəriyyə və praktika*) və adi (*gündəlik*) biliyə bölmək olar.

Ümumi şəkildə biliyi - təcrübədə yoxlanılmış (sınaqdan keçmiş) ideyalar, konsepsiyalar, nəzəriyyələr, təkliflər formasında insan şüurunda əks olunan idraki fəaliyyətin nəticələri kimi qəbul etmək olar. Çünki, əksər hallarda bilik elmi fəaliyyətin nəticəsi (*məhsul, texnologiya,informasiya*) kimi meydana çıxır və bu fasiləsiz olaraq elmin vasitəsilə daim yenilənir [Bax: Şəkil 2].

Bilik-elmi idrakın məhsulu olduğundan, onun mənimsənilməsi, ötürülməsi və istifadəsi daha dinamik hərəkətdə olan proses kimi qiymətləndirilir. Bu baxımdan, biliyi cəmiyyətin inkişafının əsas şərti və zəruri vasitəsi hesab etmək olar. Nəzərə alsaq ki, ümumilikdə "cəmiyyətin inkişafı" anlayışının əsasında bilik, biliyin də əsasını isə elmi idrak təşkil edir, onda biliyin dəyər yaradan amilə çevrilməsini sivilizasiyanın təməl şərtlərindən hesab etmək olar. Əgər cəmiyyətdə (ölkədə, toplumda, müəssisədə) insanların bilik və intellektual səviyyəsi aşağıdırsa, o halda, hər hansı




inkişafdan danışmaq olmaz.

**Şəkil 2. Elmi biliyin yaranması, köhnəlməsi və yenilənməsi fazaları**

***Qeyd**: Şəkil müəlliflər tərəfindən tərtib edilmişdir.*

Yuxarıda deyilənlərə əsaslanaraq bilik və elmi biliyin yaranması və inkişafının struktur modelini aşağıdakı kimi vermək olar [Şəkil 3].




**Şəkil 3 Bilik və elmi biliyin yaranması modeli**

***Qeyd**: Şəkil müəlliflər tərəfindən tərtib edilmişdir.*

Deməli, cəmiyyətin inkişafı insanların xoşməramlı bilik və qabiliyyətlərindən asılıdır. C.Lokk haqlı olaraq qeyd edirdi ki, "...bizim qabiliyyətimiz - vəziyyətimiz və maraqlarımız ilə uyğunluq təşkil edir. Biz yalnız öz intellektual gücümüzü hiss etdiyimiz zaman, uğur üçün hansı qərarın qəbul edilməsini daha yaxşı biləcəyik (*Локк, 1985,* s.96-97).

Biliyin istehsalı (yaradılması) elmin mənimsənilməsi və ötürülməsi təhsilin, yayılması isə informasiyanın funksiyasıdır və bu mərhələlər biliyin inkişafında ən mühüm hesab olunur. Bu mərhələlərin iştirakçılarını cəmiyyətin yükünün "daşıyıcıları" kimi dəyərləndirmək olar. Lakin burada elmi fəaliyyət xüsusi əhəmiyyət kəsb edir. Belə ki, əgər hər hansı biliyin informasiya kimi alınmasında (və ya yayılmasında), mənimsənilməsində, ötürülməsində və istifadəsində minlərlə, milyonlarla insan iştirak edirsə, yeni biliyin istehsalında bir neçə nəfər iştirak edir.

Bəzən biliyi ötürülə bilən və ötürülə bilməyən gizli biliklərə də bölürlər. Ötürülə bilən biliklərə bir şəxsdən başqasına ötürülə bilən nəzəri biliklər (informasiya da daxil) aid edilir. M.Polani insanın həyatı boyu qazandığı bilik və təcrübəni gizli (aşkar olmayan, qeyri-müəyyən) bilik kimi də şərh edirlər. M.Polaninin (*Polanyi, 1958)* irəli sürdüyü "gizli" bilik konsepsiyasına görə gizli bilik (ötürülə bilməyən) təcrübədə qazanılan, qismən başqasına ötürülən bilikdir. Məsələn, kitab oxumaqla cərrah olmaq, yaxud da, yaxşı çilingər olmaq mümkün deyil. Bilirik ki, hər bir insanlar qavrama, istedad, intellekt və s. kimi bacarıqlarına görə bir-birindən fərqlənirlər. Gizli və aşkar biliklər bunlardan asılı olaraq inkişaf edir.

Elmi dünyagörüşün və bilik səviyyəsinin dərinləşməsi cəmiyyətdə iqtisadi dünyagörüşü formalaşdırmışdır. İqtisadi dünyagörüşü insanların dünyanın iqtisadi quruluşuna və bu quruluşda insanın "roluna" baxışıdır. A.Lamın fikrincə "...ümumi dünyagörüşündə olduğu kimi, iqtisadi dünyagörüşü də hissi - yəni, dünyaya münasibət (əhval-ruhiyyə) və səmərəlilik-yəni, dünyanı anlamaq kimi tərkib hissələrinə bölünür (*Lam, 2000, s.*5).

Bundan başqa, iqtisadi dünyagörüşü 3 növə: adi, dini və elmi dünyagörüşünə bölünür. *Adi iqtisadi dünyagörüşü*–insanların sağlam iqtisadi düşüncə tərzi (*com-mon place economics, conven-tional economics*) kimi qəbul edilir. Bu zaman birləşdirici ideya – gündəlik praktikadan qazanılan və adi idrakda əks olunan sağlam iqtisadi təfəkkürdür. Adi iqtisadi dünyagörüşün müşahidə obyektlərinə - resurslar, istehlak, mübadilə, tələb, təklif və qiymət daxildir. Dini dünyagörüşü – sxolastiklərin (*yunanca "schole" – elmi söhbət, məktəb*) iqtisadi ideyalarıdır. İdeyanın məntiqi bundan ibarət idi ki, öyrənmək və düşünmək (*o cümlədən, iqtisadiyyat haqqında*) üçün azad zaman lazımdır. Bunun üçün isə əsas yer kilsə hesab olunurdu. Sxolastiklərə təkcə kilsə

xidmətçiləri deyil, alim və professorlar da daxil edilirdi. Birləşdirici ideyası - dini qaydalar, faiz, əmək, ədalətli qiymət, mülkiyyətə münasibət idi.

Elmi dünyagörüşü kimi iqtisadi dünyagörüşü də elm (iqtisadi nəzəriyyə) vasitəsilə açılır. N.İ.Fokin (*Фокин, 2009*) hesab edirdi ki, "elmi dünyagörüşü emosional komponenti özünə nə qədər birləşdirirsə, iqtisadi dünyagörüş də pozitiv (elmi) və normativ (siyasi) iqtisadi biliklərə o qədər bağlı olur. Məlumdur ki, dünyagörüşün, o cümlədən iqtisadi dünyagörüşün daşıyıcıları şəxslər və sosial qruplardır. Hər bir şəxsin və sosial qrupun özünəməxsus baxış prizması vardır. Fikrimizcə, iqtisadi dünyagörüşün milli xüsusiyyətləri də mövcuddur və bu xüsusiyyətlər xalqların inkişafında özünəməxsus rol oynayır.

Beləliklə, dünyagörüşü - insanın həyati fəaliyyətinin, cəmiyyətin inkişafının ilkin şərti və zəruri elementi hesab etmək olar. Zaman keçdikcə, bu inkişafda biliyin rolu sürətlə dəyişir. Qeyd olunan fikirləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, əslində bilik insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında öyrəndiklərimiz və ondan məqsədyönlü istifadə etdiklərimizdir. Məqsədyönlü istifadə olunduqda cəmiyyət yenilənir və inkişaf edir.

***Nəticə:***

1.Müasir dünyagörüşü, idrak və bilik bir fərdin təcrübəsi, dünyaya münasibəti və ya tədqiqatın nəticəsi deyil. Dünyagörüşü və biliklər bütün insanlığın, cəmiyyətin inkişafı tarixindən başlayaraq nəsildən-nəslə ötürülərək inkişaf etmişdir. Bu mənada dünyagörüşü və biliyin ölçülməsi, birinin digərinə təsiri ilə bağlı konkret fikir yürüdülməsi qeyri-mümkündür. Lakin o da bir həqiqətdir ki, dünyagörüşünün dəyişməsi ilə cəmiyyətin inkişafı arasında sıx əlaqə vardır və hesab edirik ki, bu əlaqədə bilik aparıcı yer tutur. Məhz, biliyin inkişafı nəticəsində insanların dünyagörüşü dəyişmiş, sivilizasiyalar bir-birini əvəz etmiş, müxtəlif xalqlar, mədəniyyətlər bir-birinə inteqrasiya etmişdir. Bu prosesdə müxtəlif elm sahələrinin mütəfəkkirlərinin, dövlət xadimlərinin, dini baxışların çox böyük rolu olmuşdur. Odur ki, hazırda istifadə olunan bilikləri hər bir kərpicin, sütunun, naxışın bir "memar" tərəfindən işlənildiyi, bu gün də "tikintisi" davam edən saraya bənzətmək olar.

2. Elmi idrakı [elmi dərki] təbiət və cəmiyyətdə baş verən hadisələr haqqında obyektiv və həqiqi [elmi] biliyin alınması, mənimsənilməsi və istifadəsi prosesi kimi səciyyələndirmək olar. Fikrimizcə, müəyyən elmi biliklərə və zamanın tələbinə uyğun dünyagörüşünə sahib olmadan iqtisadi [sosial, siyasi, tarixi, mədəni və s.] fəaliyyətin, ölkənin, ümumilikdə isə cəmiyyətin normal idarə edilməsi mümkün deyil. Nəzəri yanaşmalara əsaslansaq belə bir fərz irəli sürə bilərik ki, ölkələrin, xalqların sosial-iqtisadi inkişafı ilə dünygörüşü və elmi (və ya biliyin) idrak arasında asılılıq vardır. Dünyagörüşünün dəyişməsinə təsir göstərən iqtisadi model (system), eləcə də, bilik, elm, təhsil və informasiya hər biri öz sərhədləri çərçivəsində inkişafa təsir göstərir.

***A.N.MURADOV, N.A.AZIZADE***

### ***KNOWLEDGE DEVELOPMENT, OUTLOOK AND ECONOMIC GROWTH: IN ECONOMIC AND PHILOSOPHICAL VIEWS***

**Resume.** *The main purpose of the article is to clarify the essence of the concepts of "cognition", "outlook" that constitutes the "core" of the knowledge economy, to evaluate the importance of the development of knowledge based on common knowledge and philosophical, economic, social essence of the scientific knowledge, and theoretical approaches. Studies show that there is a connection between outlook and knowledge-based economy.*

**Key words:** *knowledge economy, education, training, scientific activity*

### *İstinadlar*


*AMEA Fəlsəfə və Hüquq İnstitutu [2002] Qədim Yunan Fəlsəfəsi Antologiyası. Bakı, 2002 108.s. s.70*

*Helmholtz H.(1995) Science and Culture: Popular and Philosophical Essays. – University of Chicago Press, 1995, 418 p.*

*http://kayzen.az/blog/idrak.html*

*http://www.physchem.chimfak.rsu.ru/Source/History/Persones/Anaximandros. Html. Анаксимандр*

*https://az.wikipedia.org/wiki/İmadəddin_Nəsimi Nəsimi fəlsəfəsi.*

*Lam A. (2000) Tacit knowledge, organization learning and societal institutions: an integrated framework. 2000. Vol. 21. № 3, p. 487–513.*

*Mehdiyev R.Ə. (2010) Fəlsəfə. Dərs vəsaiti. Bakı, "Şərq-Qərb", 2010, 360 səh.*

*Polanyi M. (1958) Personal Knowledge: Towards a Post-critical Philosophy, London, 1958, 428 p. [https://bibliodarq.files.wordpress.com/2015/09/polanyi-m-personal-knowledge-towards-a-post-critical-philosophy.pdf]*

*Spearman C. (1923) The Nature of Intelligence and the Principles of Cognition, London, 1923. 355 p. [https://archive.org/details/in.ernet.dli.2015.128034]*

*Tusi N. (2005) Əxlaqi-nasiri. Bakı, "Lider nəşriyyatı" 2005 280 s. http://ebooks.azlibnet.az/book/Fq5EL08V.pdf*

*Xəlilov S.S. (2006) Fəlsəfə: Tarix və müasirlik [Fəlsəfi komparativistika]. Bakı, «Azərbaycan Universiteti» nəşriyyatı, 2006 - 420 səh.*

*Yao X.H. (2000) An Introduction to Confucianism. //Cambridge University Press, 2000 . - p 344 p.45*

*Аль-Фараби Н.М. (1973) Социально-этические трактаты. Издательство «Наука» Казахстан ССР, Алма-Ата 1973. 436 с.*

*Аристотель (1983) Сочинения: В 4-х т. Т. 4 / Пер. с древнегреч.; Общ. ред. А. И. Доватура. — М.: Мысль, 1983. — 830 с*

*Беркли Дж. (1978) Трактат о принципах человеческого знания. В кн.: Дж.Беркли. Сочинения. М.: Наука, 1978, http://psylib.org.ua/books/berkl01/ index.htm*

*Брылев Н. (2015) О научных понятиях, их роли в познании. Методология формирования понятий/Н.Брылев [Электрон- ный ресурс]. – Режим доступа : http://www.nbrilev.ru/chto_est_ poznanie_nauka_teoriya_ponyatie.htm*

*Бэкон Ф. (1977) Сочинения в двух томах.// 2-е испр. и доп. изд. Т. 1. Сост., общ. ред. и вступит, статья А. Л. Субботина. М., «Мысль», 1977. 567 с. [http://imwerden.de/pdf/bekon_tom1_1977_text.pdf]*

*Вудвортс Р. (1950) Экспериментальная психология/ Издательство: Издательство иностранной литературы, 1950, 798 стр.*

*Гегель Г.В.Ф. (1997) Наука логики.- СПБ.: Наука, 1997.-800 с. [http://filosof.historic.ru/books/item/f00/s00/z0000423/st000.s.html ]*

*Гераклит М.Х (2011) Начало запалного мышления. логика. Учение Гераклита О Логосе. Перевод с немецкого А.П. Шурбехева Санкт-Петербург «Владимир Даль» 2011 503 с.*

*Гоббс Т. (1989) Сочинения в 2 т. Т.1. М. Мысль, 1989.- 622с.- [Филос.насл. Т.107.]- 1989—1991; Изд-во: «Мысль», Москва; т.2 - 736 с.*

*Диоген Л.(1979) О жизни, учениях и изречениях знаменитых философов. / Пер. и прим.М. Л. Гаспарова. Общ. ред. и вступ. ст. А. Ф. Лосева. [Серия «Философское наследие»]. М., Мысль, 1979. 624 стр*

*Жмудь Л.Я. (1994) Пифагор Жизнь - как учение [Том первый]//Наука, философия и религия в раннем пифагореизме. Издательство ВГК. Издательство «Алетейя» Санкт-Петербург 1994 376 с.*

*Кант И. (1999) Критика чистого разума. М.: Наука, 1999. — 655 с.*

*Кун Т. (1977) Структура научных революций. С вводной статьей и дополнениями 1969г. - М.: Прогресс, 1977.- 300с. [http://www.biometrica.tomsk.ru/Kuhn.pdf]*

*Кун Т. (2003) Структура научных революций: Пер. с англ. / Т. Кун; Сост. В.Ю. Кузнецов. — М.: ООО «Издательство АСТ», 2003. —605 с,*

*Лейбниц Г.В. (1983) Сочинения в 4-х т. /Т. 2. Новые опыты о человеческом разумении.-М.: Мысль, 1983.686 с.*

*Локк Дж.(1985) Сочинения в 3-х т.: Т. 1/Ред.: И.С.Нарский, А.Л.Субботин; Ред. I т., авт. Вступит статьи и примеч. И.С.Нарский; Пер. с англ. А.Н.Савина.— М.: Мысль, 1985.— 621 стр. [Филос. наследие. Т. 93].*

*Менис Л. (2005) Человеческая деятельность: тракт по экономической теории /пер. с 3-го исправ. Англ. Изд. Ф.В.Куряева. Челябинст: Социум, 2005. 878 с.*

*Микешииа Л.А. (2005) Философия науки: Современная эпистемология. Научное знание в динамике культуры. Методология научного исследования: учеб. пособие/Л.А.Микешина.- М.: Прогресс-Традиция: МПСИ: Флинта, 2005. - 464 с.*

*Панченко Д. В. (1989) Фалес: рождение философии и науки // Некоторые проблемы истории античной науки : Сборник научных трудов / Отв. ред. А. И. Зайцев, Б. И. Козлов. — Л.: Главная астрономическая обсерватория, 1989. — С. 16—36.*

*Платон (1990) Собрание сочинений в 4 т.: Т. I/Общ. ред. А. Ф. Лосева и др.; Авт. вступит, статьи А. Ф. Лосев; Примеч. А. А. Тахо-Годи; Пер. с древнегреч.— М.: Мысль, 1990. 860 с.*

*Поппер К. (2004) Логика научного исследования: Пер. с англ. / Под общ. ред. В. Н. Садовского. — М.: Республика, 2004. — 447 с.*

*Рубинштейн С.Л. (2000). Основы общей психологии. Составители, авторы комментариев и послесловия А.В.Брушлинский, К.А.Абульханова-Славская СПб: Издательство "Питер", 2000 - 712 с.*

*Спиноза Б. (1957) Избранные произведения// Том первый- Москва Государственное Издательство Политической литературы 1957, 630 с.*

*Спиркин А.Г. (2006) Философия: Учебник. - 2-е изд. — М.: Гардарики, 2006. — 736 с.* s.16-17

*Фокин Н.И. (2009) Экономика: В начале было Слово.* http://dictionary-economics.ru/word

*Хазиев В.С., Хазиева Е.В. (2004) Мировоззрение как субъективная реальность: Монография. – Уфа: Изд-во БГПУ, 2004. – 296 с.* s.10

*Юм Д. (1998) Трактат о человеческой природе. Мн.: ООО "Попурри", 1998. 720 с. С.42-677.* http://filosof.historic.ru/books/item/f00/s00/z0000185/

View publication stats